DOI: https://doi.org/10.36719/2663-4619/118/69-74

**Aysu Musayeva**
Bakı Dövlət Universiteti
magistrant
https://orcid.org/0009-0009-4501-9454
aysu.musayeva289@gmail.com

# Ada turizmi və ekoloji tarazlıq

## Xülasə

Məqalədə ada turizminin ekoloji tarazlığa təsiri, mövcud problemlər və davamlı inkişaf modelləri elmi əsaslarla təhlil olunur. Adaların ekosistem baxımından kövrək təbiəti, turizm fəaliyyətlərindən qaynaqlanan təzyiqləri daha da dərinləşdirir. Məqalədə Gökçeada və Bozcaada kimi konkret nümunələr üzərindən ada turizminin sosial və təbii mühitə təsirləri qiymətləndirilir, eyni zamanda Seyşel və Azor adalarında tətbiq olunan ekoturizm strategiyalarına istinad edilir. Tədqiqatın nəticələri göstərir ki, planlaşdırılmış və icma əsaslı turizm yanaşmaları, adalarda təbii resursların mühafizəsi və mədəni irsin qorunması üçün mühüm vasitələrdir. Məqalə həm nəzəri, həm də praktik səviyyədə ada turizminin davamlı idarə olunması üçün tövsiyələr təqdim edir.

***Açar sözlər:*** *Ada turizmi, ekoturizm, ekoloji tarazlıq, davamlı inkişaf, biomüxtəliflik, daşıma tutumu, icma əsaslı turizm, yaşıl ada strategiyası*

**Aysu Musayeva**
Baku State University
Master student
https://orcid.org/0009-0009-4501-9454
aysu.musayeva289@gmail.com

# Island Tourism and Ecological Balance

## Abstract

The article analyzes the impact of island tourism on ecological balance, existing problems and sustainable development models on a scientific basis. The fragile nature of islands in terms of ecosystems further deepens the pressures arising from tourism activities. The article evaluates the impacts of island tourism on the social and natural environment through specific examples such as Gokcheada and Bozjaada, and also refers to ecotourism strategies applied in the Seychelles and the Azores. The results of the study show that planned and community-based tourism approaches are important tools for the conservation of natural resources and the preservation of cultural heritage on islands. The article provides recommendations for the sustainable management of island tourism at both a theoretical and practical level.

***Keywords:*** *Island tourism, eco-tourism, ecological balance, sustainable development, biodiversity conservation, carrying capacity, community-based tourism, green island strategy*

## Giriş

Son onilliklərdə dünya üzrə turizm fəaliyyətinin artması, xüsusilə də təcrid olunmuş təbii məkanlara marağın yüksəlməsi, ada bölgələrini qlobal turizm xəritəsində mühüm mövqeyə gətirmişdir. Adalar həm təbii landşaft, həm də mədəni müxtəliflik baxımından böyük potensiala malik olmaqla, turistlər üçün cəlbedici məkanlar hesab olunur. Lakin bu cəlbedicilik paralel şəkildə ekoloji tarazlığın pozulması riskini də artırır. Adalarda ekosistemlərin kövrək olması, resursların məhdudluğu və antropogen təzyiqlərin yüksəkliyi bu məkanlarda turizm fəaliyyətinin daha ciddi planlaşdırma və davamlı idarəetmə ilə həyata keçirilməsini zəruri edir (Bramwell & Lane, 2011).

Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0) 

Bu tədqiqatda ada turizminin spesifik xüsusiyyətləri, onun ekoloji sistemlərə təsiri və bu təsirlərin minimuma endirilməsi üçün tətbiq olunan davamlı turizm strategiyaları təhlil ediləcəkdir. Xüsusilə Gökçeada və Bozcaada kimi nümunələr üzərindən həm sosial, həm də ekoloji müstəvidə balansın qorunması yolları qiymətləndiriləcəkdir.

**Tədqiqat**

Adalar öz ekosistemləri baxımından fərqli və xüsusi xarakter daşıyır. Adanın ölçüsü, təcrid olunmuşluğu, iqlim şəraiti və biocoğrafi mövqeyi onun ekoloji xüsusiyyətlərini formalaşdırır. Adalarda çox zaman endemik növlər, yəni yalnız həmin ada və ya adalar qrupunda rast gəlinən canlı növləri məskunlaşır. Bu da ada təbiətini daha həssas və müdafiəyə ehtiyaclı edir. Adalarda rast gəlinən bitki və heyvan növlərinin bir çoxu yalnız həmin regionlara aiddir. Bu canlıların yaşayış sahələrinin dəyişməsi və ya itməsi qlobal ekoloji tarazlığa təsir edə bilər (Hall, 2010).

Ada turizminin genişlənməsi həm sosial, həm də ekoloji baxımdan müxtəlif nəticələrə səbəb olur. Ekoloji aspektdə əsas narahatlıqlar təbiətə fiziki müdaxilə, resursların həddindən artıq istismarı və biomüxtəlifliyin azalması ilə bağlıdır. Xüsusilə kütləvi turizm növləri adalarda dayanıqlı olmayan təcrübələrin formalaşmasına səbəb ola bilir (Dodds & Butler, 2010). UNWTO-nun məlumatına görə, 2023-cü ildə dünyada ada əsaslı turizm bölgələri ümumi beynəlxalq turist axınının təxminən 16%-ni təşkil etmişdir. Bu, 180 milyon turist deməkdir. Bozcaada və Gökçeada üçün 2022-ci il statistikasına görə, yay mövsümündə tullantı həcmi ildə ortalama 4 qat artır, qışda 10 ton/ay olan məişət tullantısı yayda təxminən 38–45 ton/ay-a qədər yüksəlir.

Turizm obyektlərinin tikintisi (otel, restoran, yollar və s.) əksər hallarda təbii ərazilərin, sahil zolaqlarının və kənd təsərrüfatı torpaqlarının sıradan çıxmasına səbəb olur (Becken & Hay, 2007). Adalarda yer məhdud olduğuna görə hər bir tikinti təbiətin bütövlüyünə ciddi təsir göstərir. Bu, çimərlik eroziyası, qum çöküntülərinin itməsi və sahil biomlərinin məhv olması ilə nəticələnə bilər (UNWTO, 2018).

Adaların su ehtiyatı əsasən yağış sularından və məhdud yeraltı su ehtiyatlarından ibarətdir. Turizm mövsümündə əhalinin və turistlərin sayının birdən-birə artması suya olan tələbatı kəskin şəkildə yüksəldir. Bu isə su çatışmazlığı, şirin suyun duzlulaşması və enerji böhranı kimi nəticələr doğurur. Eyni zamanda enerji ehtiyatları adalarda əksər hallarda ya kənardan gətirilir, ya da ətraf mühitə zərərli üsullarla hasil edilir (Gössling et al., 2012).

Turizm fəaliyyəti tullantıların həcmini bir neçə dəfə artırır. Plastik tullantılar, kanalizasiya axıntıları, tikinti qalıqları və qida tullantıları həm quru, həm də dəniz ekosistemlərinə zərər verir. Tullantıların düzgün idarə olunmaması su hövzələrinin çirklənməsinə, dəniz canlılarının məhvinə və insan sağlamlığına təhlükə yarada bilər (Sharpley, 2009).

Adalarda turizmin artması yabanı heyvanların yaşayış sahələrini daraldır və çox vaxt onların insan məskunlaşmalarına yaxınlaşmasına səbəb olur. Bu, həm heyvanlar üçün təhlükəlidir, həm də zoonoz xəstəliklərin yayılmasına şərait yarada bilər. Adalarda yaşayan endemik növlər isə turizmin yaratdığı səs-küy, işıq çirkliliyi və insan fəaliyyəti nəticəsində məhv olmaq riski ilə üz-üzədir.

Ada turizminin müsbət nəticə verməsi üçün ekoloji risklərə qarşı proaktiv və davamlı yanaşmalar tətbiq olunmalıdır. Bu istiqamətdə beynəlxalq səviyyədə tövsiyə olunan və praktikada sınaqdan keçirilmiş bir sıra model və strategiyalar mövcuddur.

**Ekoturizm,** ətraf mühitə minimal təsirlə təbiətin kəşfini və mədəni qarşılıqlı əlaqəni təşviq edən turizm formasıdır. Adalarda bu model yerli icmalarla əməkdaşlıq çərçivəsində həyata keçirildikdə, həm iqtisadi fayda təmin olunur, həm də ekosistemlər qorunur. İcma əsaslı turizm modelləri, yerli əhalini prosesə cəlb etməklə turizmdən əldə olunan gəlirin bölgədə qalmasını və sosial bərabərliyin qorunmasını təmin edir (Honey, 2008).

Hər bir adanın eyni anda qəbul edə biləcəyi turist sayı vardır ki, bu da onun **ekoloji daşıma tutumu** adlanır (Wearing & Neil, 2009). Bu göstərici nəzərə alınmadan həyata keçirilən turizm fəaliyyəti ada üçün təhlükəli ola bilər. Bu baxımdan mövsümi planlaşdırma və kvota sistemlərinin tətbiqi, xüsusilə yay aylarında ziyarətçi sayının idarə edilməsi, təbii resursların tükənməsinin və turizmin mənfi təsirlərinin qarşısını ala bilər (Saarinen, 2006).

Adalarda alternativ enerji mənbələrindən istifadə (günəş, külək, bioenerji), yağış sularının toplanması, tullantıların ayrılması və təkrar emalı, enerji qənaətli infrastruktur layihələri ilə ətraf

mühitə olan təsir minimuma endirilə bilər. Bu yanaşmalar "yaşıl ada" konsepsiyasının əsasını təşkil edir (Scheyvens & Momsen, 2008).

Türkiyənin Egey dənizində yerləşən Gökçeada və Bozcaada adaları son illərdə davamlı turizm yanaşmaları ilə ön plana çıxır. Gökçeadada kənd təsərrüfatı ilə turizmin inteqrasiyası, Bozcaadada isə avtomobil axınının məhdudlaşdırılması, plastik qadağası və üzvi festivallar ilə ekoloji tarazlıq qorunur.

Seyşel adalarında turizm planlaması dövlət tərəfindən ciddi şəkildə tənzimlənir. Otel tikintisinə kvota tətbiq olunur və xüsusi qorunan təbiət əraziləri genişləndirilir. Yeni otellərin tikintisi üçün ekoloji təsir qiymətləndirilməsi (ÇED) məcburidir və lisenziyalar daşıma tutumuna əsasən verilir. 2018-ci ildən sonra yalnız "yaşıl bina" standartlarına cavab verən obyektlərə tikinti icazəsi verilir.

Seyşel 2017-ci ildən etibarən birdəfəlik plastik torbaları, qabları və çəngəl-bıçaqları tamamilə qadağan edən ilk Afrika ölkəsi olmuşdur. Bu təşəbbüs çimərliklərin və dənizlərin plastiklə çirklənməsinin qarşısını almaqda mühüm rol oynayır. Lakin, Seyşel adalarında turizm sektorunun yaratdığı tullantıların 68%-i plastik əsaslıdır və bu tullantıların böyük hissəsi çimərlik və dəniz sahələrinə axır. Turistlərin orta sutkalıq su istifadəsi 500 litr civarındadır. Bu göstərici yerli əhalidən 2–3 dəfə çoxdur və adalarda su stressi yaradır (Gössling et al., 2012). Bundan başqa, gəmi turları, dəniz gəzintiləri və suda idman fəaliyyətləri nəticəsində mərcan resiflərinə mexaniki zərər verilir. Bu resiflər isə həm biomüxtəliflik, həm də dalğa enerjisini udaraq sahillərin qorunması baxımından kritik rol oynayır. Hazırda Seyşel ərazisinin təxminən 50%-i milli park, dəniz qoruğu və qorunan meşə zonası kimi kateqoriyalara daxildir. Belə ki, Vallee de Mai və Aldabra Atoll kimi ərazilər UNESCO tərəfindən Dünya İrsi Siyahısına daxil edilmişdir. Bura daxil olmaq üçün xüsusi icazə sənədi tələb olunur.

2022-ci ildə keçirilmiş bir beynəlxalq araşdırmaya görə, sahil boyu otellərin 38%-i 2050-ci ilə qədər su altında qalma riski daşıyır (UNEP, 2022). Bu baxımdan həm sahil qorunması texnologiyalarına, həm də alternativ iqtisadi fəaliyyətlərə investisiya artırılmalıdır.

2010–2022 illəri arasında Azor adalarına gələn turistlərin sayı təxminən 300% artaraq 250 min nəfərdən 750 minə çatmışdır. Xüsusilə São Miguel, Faial və Terceira adaları turistlərin əsas ziyarət məkanlarıdır. Bura isti bulaqlar, krater gölləri və unikal vulkanik landşaftlar daxildir. Turist axınının artması ilə vulkanik göllərə, bataqlıqlara və sahil zonalarına ekoloji təziqlər artmışdır (Duvat, 2013). 2022-ci ildə aparılan qiymətləndirməyə əsasən, São Miguel adasında yol infrastrukturu və turist davranışı səbəbilə təbii yamacların təqribən 14%-i eroziyaya uğramışdır. Azorların 9 adasından 7-si UNESCO tərəfindən tanınmış biosfer rezervatları statusu almışdır.

Azor adaları isə "yaşıl ada turizmi" üzrə Avropada qabaqcıl modellərdən biridir, burada tullantıların sıfıra endirilməsi və karbon neytrallığı hədəflənir. Azor adalarında aparılan bir sorğuya görə, yerli sakinlərin 72%-i turist sayının artmasından narazıdır və bunu su çatışmazlığı və qiymət artımı ilə əlaqələndirir.

Azor hökuməti 2021-ci ildən "Azores Green Destination" strategiyasını tətbiq edir. Bu modelə görə:

1. Bütün dövlət turizm obyektləri bərpa olunan enerji ilə işləməlidir;
2. Yerli otellərə karbon izi hesabatı vermək mecburi şərt kimi tətbiq olunub;
3. Turistlərə karbon kompensasiya proqramı təklif olunur.

Adalarda "daşıma tutumu" göstəriciləri əsasında turist axını idarə olunur. Belə ki, göl və vulkan ziyarətləri üçün gündəlik kvotalar tətbiq olunur və bəzi marşrutlar yalnız rezervasiya ilə fəaliyyət göstərir.

Yerli icmaların ekoturizm fəaliyyətinə aktiv cəlbi həyata keçirilir: yerli sənətkarlıq məhsulları, ev bazarları, üzvi bağçılıq və kənd gəzintiləri. Bu, turizm gəlirlərinin birbaşa icmaya yönəlməsinə şərait yaradır (Scheyvens & Momsen, 2008).

Azor adaları göstərir ki, təbii ehtiyatların qorunması və turizm gəlirlərinin artırılması ziddiyyət təşkil etmir, əksinə düzgün planlaşdırıldıqda bir-birini tamamlayan amillərə çevrilə bilər. Bu model Azərbaycanın Kür-Araz deltası, Xəzərsahili əraziləri və hətta Abşeron yarımadası kimi ərazilərində də tətbiq oluna biləcək nümunəvi yanaşmadır.

Ada turizminin rəqəmsallaşması və texnoloji yanaşmalar

Rəqəmsal texnologiyaların turizm sahəsində sürətli tətbiqi ada turizmində də ciddi dəyişikliklər yaradıb. Bu dəyişikliklər təkcə marketinq və satış sahələrində deyil, həm də ekoloji nəzarət, resursların effektiv istifadəsi və turist davranışının idarə olunması baxımından mühüm imkanlar açır.

Dron və peyk görüntüləri vasitəsilə sahilyanı zonalarda tikinti fəaliyyəti, meşə qırılması və eroziya halları real vaxtda izlənə bilir. IoT əsaslı sensor sistemləri su istifadəsi, tullantı səviyyəsi və turist sıxlığı kimi göstəriciləri izləyərək ətraf mühitin yükünü ölçür (Mihalič, 2000). Məsələn, Azor adalarında tətbiq olunan “Smart Monitoring” pilot layihəsi 2022-ci ildə São Miguel adasında turist sıxlığına uyğun xəbərdarlıq sistemini işə salmışdır.

Mobil tətbiqlər və artırılmış reallıq texnologiyaları vasitəsilə turistlər təbiətə hörmətli davranış qaydaları haqqında interaktiv şəkildə məlumatlandırılır. Ekoturizm marşrutları üçün yaradılan GPS əsaslı mobil sistemlər turistlərin qadağan olunmuş və həssas zonalara daxil olmasının qarşısını alır. Virtual reallıq (VR) texnologiyaları vasitəsilə bəzi həssas ərazilər (məsələn, Seyşel adalarındakı mərcan resifləri) ziyarət edilmədən virtual formada tanıdılır.

Post-COVID dövründə ada turizmi

COVID-19 pandemiyası adalarda turizm sektoruna ciddi zərbə vurdu, lakin eyni zamanda davamlılıq və yerli iştirakçılıq baxımından yeni imkanlar doğurdu. Pandemiyadan sonra turistlər daha çox təcrid olunmuş, təbiətə yaxın və az sıxlıqlı yerləri seçməyə başladılar. Bu tendensiya adalara olan marağı artırdı, lakin kütləvi turizmin deyil, fərdi və dayanıqlı səyahətlərin ön plana keçməsinə səbəb oldu (Dodds & Butler, 2010). Bozcaada və Gökçeada kimi adalarda pandemiyadan sonra daha çox “slow tourism” əsaslı marşrutlar (velosiped turları, kənd gəzintiləri, yerli mətbəx tədbirləri) inkişaf etdirildi. Seyşel və Azor hökumətləri bu tendensiyanı dəstəkləyərək “ekoloji risk zonasız turizm” kampaniyaları keçirdilər.

Adalarda post-pandemiya dövründə ekoloji təmizliklə bağlı yeni standartlar formalaşdırıldı:

1. Otellərdə biotəmizləyici texnologiyalar,
2. Açıq hava turizm obyektlərinin UV sterilizasiyası,
3. Yerli icmalarda sanitariya təhsili proqramları tətbiq olundu.

Ada turizminin hüquqi və idarəetmə əsasları

Adalarda turizmin tənzimlənməsi üçün bir çox beynəlxalq sənədlər mövcuddur. Bunlara aşağıda qeyd olunanlar aiddir:

I. UNESCO-nun “İnsan və Biosfer Proqramı (MAB)” adaların təbii və mədəni dəyərlərinin qorunmasını təşviq edir.

II. UNEP-in Ada Davamlılığı Çərçivəsi (Small Island Developing States – SIDS) ada dövlətlərinə və bölgələrinə turizm sahəsində dayanıqlılıq üçün maliyyə və metodoloji dəstək verir.

III. Avropa İttifaqının Natura 2000 şəbəkəsi çərçivəsində Azor adaları qorunan təbiət əraziləri kimi hüquqi status qazanmışdır.

Davamlı ada turizmi yalnız dövlət orqanlarının nəzarəti ilə deyil, yerli icmaların və QHT-lərin fəal iştirakı ilə mümkündür (Honey, 2008).

Turizm layihələrinin təsdiqi üçün ictimai dinləmələrin məcburi olması, yerli əhalinin kompensasiya və gəlir paylaşımı hüququnun qanunla təmin edilməsi, gənclər üçün ekoturizm təhsili və könüllü proqramlarının təşviqi olduğu təqdirdə bu mexanizmləri yaratmaq mümkündür.

İqlim dəyişikliyi kontekstində ada turizminin gələcəyi

Ada bölgələri iqlim dəyişikliyinə qarşı dünyanın ən həssas ərazilərindən hesab olunur (Uyarra et al., 2005). Xüsusilə dəniz səviyyəsinin qalxması, qasırğaların intensivləşməsi, sahil eroziyası və şirin su ehtiyatlarının azalması adalarda həm əhali, həm də turizm infrastrukturu üçün ciddi təhlükə yaradır. IPCC (2022) hesabatına görə, kiçik ada ölkələrində yerləşən 1.4 milyondan artıq insan 2100-cü ilə qədər daimi daşqın riski altında olacaq. Mərcan rifləri, turizm cəlbediciliyi baxımından mühüm element olsa da, okeanların istiləşməsi səbəbilə ağarma və məhvolma riski altındadır. Məsələn, Seyşel adalarında son 20 ildə mərcan örtüyünün təxminən 90%-i zərər görmüşdür (UNEP, 2022).

Turizm sektoru bu risklərə qarşı proaktiv adaptasiya tədbirləri görməlidir:

- "İqlimə dayanıqlı infrastruktur" – adalarda tikilən otellər və restoranlar artıq fırtına və daşqın risklərinə qarşı xüsusi dizaynla layihələndirilməlidir (Gössling, 2003).

- Sahil qoruma layihələri – dalğa enerjisini sındıran bio-mexaniki strukturlar (məs., mangrov meşə zolaqları, daş yığıntılar) tətbiq olunur (Duvat, 2013).

- İqlim informasiya sistemləri – turistlər üçün real vaxtda hava proqnozu, dəniz təhlükəsi və təbii fəlakət xəbərdarlıqları təmin edən mobil tətbiqlər hazırlanır.

İqlim böhranı sadəcə fiziki təhlükə deyil, həm də turist davranışlarının və etik dəyərlərin dəyişməsini tələb edir. Yeni dövrün turisti:

- təbiətə müdaxilə etmədən kəşf etməyə,
- ekoloji etikaya uyğun davranmağa,
- yerli icmalara dəstək verməyə daha çox maraq göstərir (Honey, 2008).

Bu dəyişiklik ada turizmini gələcəkdə təcrübə əsaslı, mədəni və ruhsal zənginləşmə yönümlü bir sahəyə çevirir. Beləliklə, ada turizmi yalnız istirahət deyil, həm də təbiətlə və insanla harmoniyada birgə mövcudluq fəlsəfəsinə əsaslanan bir forma alır.

## Nəticə

Ada turizmi ilə ekoloji tarazlığın paralel şəkildə inkişafı mümkündür, lakin bu, yalnız strateji planlaşdırma, yerli icmaların fəal iştirakı və davamlı idarəetmə ilə reallaşa bilər (Farrel & Twining-Ward, 2005). Araşdırmalar göstərir ki, ekoloji baxımdan məsuliyyətli turizm modelləri uzunmüddətli perspektivdə həm iqtisadi fayda, həm də sosial rifah gətirir.

Tövsiyələr:

- Dövlət səviyyəsində ada turizmi üçün ayrıca davamlı inkişaf strategiyası hazırlanmalıdır.
- Tullantı idarəçiliyi, su və enerji resurslarının qorunması üçün texnoloji yeniliklərə dəstək artırılmalıdır.
- Yerli icmaların turizm qərarlarına cəlb olunması hüquqi və inzibati mexanizmlərlə təmin edilməlidir (Honey, 2008).
- Tədqiqat institutları və universitetlər ada ekosistemlərinin davamlı inkişafı ilə bağlı mütəmadi elmi monitorinqlər aparmalıdır (Sharpley, 2009).

## Ədəbiyyat

1. Becken, S., & Hay, J. E. (2007). *Tourism and climate change: Risks and opportunities*. Channel View Publications.
2. Bramwell, B., & Lane, B. (2011). Critical research on the governance of tourism and sustainability. *Journal of Sustainable Tourism, 19*(4–5), 411–421.
3. Dodds, R., & Butler, R. (2010). Barriers to implementing sustainable tourism policy in mass tourism destinations. *Tourismos: An International Multidisciplinary Journal of Tourism, 5*(1), 35–53.
4. Duvat, V. K. E. (2013). Coastal protection structures in Tarawa Atoll, Republic of Kiribati. *Sustainability Science, 8*(3), 363–379. https://doi.org/10.1007/s11625-012-0190-3
5. Farrel, B. H., & Twining-Ward, L. (2005). Seven steps towards sustainability: Tourism in the context of new knowledge. *Journal of Sustainable Tourism, 13*(2), 109–122.
6. Gössling, S. (2003). *Tourism and development in tropical islands: Political ecology perspectives*. Edward Elgar Publishing.
7. Gössling, S., Peeters, P., Hall, C. M., Ceron, J. P., Dubois, G., Lehmann, L. V., & Scott, D. (2012). Tourism and water use: Supply, demand, and security. *Tourism Management, 33*(1), 1–15. https://doi.org/10.1016/j.tourman.2011.03.015
8. Hall, C. M. (2010). *Tourism and biodiversity: Mapping tourism's global footprint*. Routledge.
9. Honey, M. (2008). *Ecotourism and sustainable development: Who owns paradise?* (2nd ed.). Island Press.
10. Mihalič, T. (2000). Environmental management of a tourist destination: A factor of tourism competitiveness. *Tourism Management, 21*(1), 65–78. https://doi.org/10.1016/S0261-5177(99)00096-5

11. Saarinen, J. (2006). Traditions of sustainability in tourism studies. *Annals of Tourism Research, 33*(4), 1121–1140. https://doi.org/10.1016/j.annals.2006.06.007
12. Scheyvens, R., & Momsen, J. (2008). Tourism and poverty reduction: Issues for small island states. *Tourism Geographies, 10*(1), 22–41. https://doi.org/10.1080/14616680701825115
13. Sharpley, R. (2009). *Tourism development and the environment: Beyond sustainability?* Earthscan.
14. United Nations Environment Programme (UNEP). (2022). *Coral reef status report: Vulnerability of island ecosystems to climate change*. https://www.unep.org/resources/report/coral-reef-status-2022
15. United Nations World Tourism Organization (UNWTO). (2018). *Sustainable tourism for development in island destinations*. Madrid: Author.
16. Uyarra, M. C., Cote, I. M., Gill, J. A., Tinch, R. R., Viner, D., & Watkinson, A. R. (2005). Island-specific preferences of tourists for environmental features: Implications of climate change for tourism-dependent states. *Environmental Conservation, 32*(1), 11–19.
17. Wearing, S., & Neil, J. (2009). *Ecotourism: Impacts, potentials and possibilities?* (2nd ed.). Routledge.

Daxil oldu: 31.03.2025
Qəbul edildi: 02.06.2025